# Etimadın gücləndirilməsinə xidmət edən təlim



Azərbaycan və İranın "Araz-2025" birgə hərbi təlimi başa çatdı. Azərbaycan və İran hərbi əməkdaşlığının dərinləşməsində əhəmiyyətli rol oynayan təlim ölkələrimiz və onların Silahlı Qüvvələri arasında qarşılıqlı etimadın artırılmasına xidmət edir.

Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev qəzetimizə açıqlamasında bildirib ki, Azərbaycan-İran arasındakı münasibətlərə diqqət çəkəndə "Araz-2025" birgə hərbi təliminin mühüm əhəmiyyətə malik olduğu bir daha görünür. Bu təlim həm regional, həm də iki ölkə arasında münasibətlərin inkişafı baxımından böyük hadisədir. "Azərbaycan-İran münasibətlərində gərginliyin aradan qalxmasının vacib elementlərindən biri belə hərbi təlimlərin keçirilməsidir. Hərbi əməkdaşlığın inkişafına gəldikdə, Azərbaycan və İran arasında birgə təlimlərin keçirilməsi gələcəkdə bu məsələləri koordinasiyalı şəkildə həll etməyə imkan verəcək. Çünki iki ölkə arasında böyük sərhəd var, sərhədlərin hərtərəfli təhlükəsizliyinin təmin olunması vacibdir. Təlimin adından da göründüyü kimi, Araz çayı boyunca həyata keçirilən əməliyyatlar istər qaçaqmalçılığın, istərsə də narkotik vasitələrin qanunsuz dövriyyəsinin qarşısının alınmasında mühüm əhəmiyyət kəsb edəcək", - deyə komitə sədri əlavə edib.

A.Nağıyev qeyd edib ki, burada siyasi məsələlər də yer alır. Azərbaycan və İran hərbi qüvvələri arasında keçirilən bu təlim bəzi dövlətlərə mesajdır. Azərbaycan müstəqil daxili və xarici siyasət yürüdür. Azərbaycanın qonşu və ya regional dövlətlərlə hansı istiqamətdə münasibət qurması özündən asılıdır. Qonşuluq prinsiplərini də ölkəmiz daim nəzərə alır.

A.Nağıyev deyib ki, əlaqələrin inkişafı nəticəsində digər məsələlər də öz həllini tapa bilər: "İstər Zəngəzur dəhlizi, istərsə də nəqliyyat dəhlizlərinin yaradılması ilə bağlı, gələcəkdə onların təhlükəsizliyinə təminat vermək baxımından da iki ölkə arasında münasibətlərin inkişafı mühüm məsələdir. Birgə təlimlər, həmçinin hər iki dövlətin daxili auditoriyasına və xaricə verilən mesajdır ki, biz bu istiqamətdə müəyyən problemlərin həllində birgə səy göstəririk və göstərəcəyik. Həm Azərbaycan, həm də İran vətəndaşları başa düşməlidirlər ki, qonşuluq siyasətini, eyni zamanda sülhün bərqərar olmasını, qarşılıqlı münasibətləri daim hər bir məsələdən üstün tuturuq. Düşünürəm ki, bu istiqamətdə də ciddi addımlar atılacaq".

Komitə sədri vurğulayıb ki, "Araz-2025" həm də bir sıra dövlətlərə regional təhlükəsizlik baxımından bir mesajdır. Ermənistan da özü üçün nəticə çıxarmalıdır. Azərbaycan-İran münasibətlərinin müsbət istiqamətdə inkişafı ancaq regional təhlükəsizliyin inkişafına xidmət edə bilər.

44 günlük müharibədən sonra Cənubi Qafqazda sabitliyin bərqərar olması üçün Azərbaycanın "3+3" formatını təklif etdiyini xatırladan deputat bildirib ki, bunun inkişaf etdirilməsi ilə bağlı məsələlər dəfələrlə gündəmə gətirilib: "3+3" formatına daxil olan ölkələrin birgə fəaliyyəti, onların sülhün bərpası istiqamətində atdığı addımlar mühüm əhəmiyyət kəsb edir. Bütün bunlar təhdidlərin qarşısını almaq üçün koordinasiyalı şəkildə atılan addımlardır".

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan. - 2025.- 23 may (№ 106).- S.6.